Food and Agriculture Organization of the United Nations

**Ərzaq və Kənd Təsərrüfatı sahəsində FAO-Türkiyə Tərəfdaşlıq Proqramı (FTPP II)**

# MƏRKƏZİ ASİYA, AZƏRBAYCAN VƏ TÜRKİYƏDƏ ƏRZAQ İTKİSİ VƏ TULLANTILARININ AZALDILMASI

GCP/SEC/015/TUR



12 RESPONSIBLE CONSUMPTION AND PRODUCTION

# Daha yaxşı gələcək naminə ərzaq itkisi və tullantılarının azaldılması

2050-ci ilədək dünya əhalisinin 9,7 milyardı ötəcəyi və həmin dövrdə ərzaq tələbatının 60 faizə qədər artacağı gözlənilir. Bu arada, xroniki aclıq artmaqda davam edir. 2019-cu ildə dünyada təxminən 690 milyon insan xroniki aclıq həddinə çatmış və istehsal olunan ərzaq məhsullarının əhəmiyyətli miqdarı itkiyə gedir və ya israf olunur. Həmçinin ən son mövcud qlobal iqtisadi proqnozlara əsasən COVID-19 pandemiyası ilə əlaqədar 2020-ci ildə normadan az qidalanan insanların sayının əlavə olaraq 83-132 milyon artmış ola biləcəyi güman edilir. Təkcə Türkiyədə hər il 18 milyon ton ərzağın itkiyə getdiyi və ya israf edildiyi təxmin olunur. Bu rəqəm ölkədə istehsal olunan bütün ərzaq məhsullarının 20 faizindən çoxdur.

İqlim dəyişikliyi, yoxsulluq və aclıq kimi hazırkı qlobal problemlər fonunda ərzaq itkisi və tullantıları (əİT) mövcud vəziyyəti daha da pisləşdirir. Bu səbəbdən, qida itkisi və tullantılarının azaldılması qida təhlükəsizliyinə nail olmaq, qida zəncirlərini yaxşılaşdırmaq və qida sistemlərinin ətraf mühitə təsirini azaltmaq baxımından mühüm məqsədlərdən biridir.

Qida itkisi və israfının qarşısının alınması təkcə institusional və hüquqi mexanizmlərin yenidən nəzərdən keçirilməsini, qida məhsullarının istehsalı, konservasiyası və paylanması üsullarının təkmilləşdirilməsini deyil, həm də resurs tutumlu istehlak modellərinin dəyişdirilməsini və ərzaq təchizatı zəncirinin bütün iştirakçıları, o cümlədən istehlakçılar arasında məlumatlılığın artırılmasını tələb edir.



# Layihənin qısa icmalı

**Donor**
Türkiyə Respublikası

**Büdcə**
1 500 000 ABŞ dolları

**Müddət**
01 Noyabr 2019
31 Oktyabr 2022

**Məqsəd**
Siyasət, strategiya və investisiya proqramları vasitəsilə ərzaq itkisi və tullantılarının azaldılması

**Hədəf Ölkələr**
Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkiyə, Türkmənistan və Özbəkistan

**Mərkəzi Asiyada bu problemin həllinə töhfə vermək məqsədilə Ərzaq və Kənd Təsərrüfatı sahəsində FAO-Türkiyə Tərəfdaşlıq Proqramı (FTPP II) çərçivəsində FAO "Mərkəzi Asiya, Azərbaycan və Türkiyədə ərzaq itkisinin və tullantılarının azaldılması" adlı layihənin icrasına start vermişdir.**

## Layihənin tətbiq dairəsi

Türkiyə Respublikası Hökuməti tərəfindən maliyyələşdirilən bu layihənin məqsədi Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkiyə, Türkmənistan və Özbəkistana ərzaq itkisi və tullantılarını azaltmaq üçün tədbirlər hazırlamaqda kömək etməkdir.

Xüsusilə, layihə resipiyent ölkələrə aşağıdakı məsələlərdə dəstək verəcək:

- əİT-nin azaldılması məqsədilə gender amilləri nəzərə alınmaqla milli strateji siyasət və fəaliyyət planlarının hazırlanması;
- əİT-lə əlaqədar məlumat toplama sistemlərinin yaradılması, həmçinin əİT-nin ölçülməsi və monitorinqi;
- biliklərin idarə edilməsinin və bacarıqların təkmilləşdirilməsi;
- istehlakçılar da daxil olmaqla bütün sektorlardakı iştirakçılar arasında milli və regional səviyyədə heç kimi nəzərdən qaçırmamaqla əİT-lə əlaqədar (səbəblər, təsirlər və həll yolları) məlumatlılığın artırılması.

Bundan əlavə, **Ərzaq İtki və Tullantıları üzrə Regional Komitənin** yaradılması vasitəsilə regional əməkdaşlıq gücləndiriləcək.

**Layihənin əsas benefisiarları** təlimçilər, məsləhət xidməti mütəxəssisləri və milli qurumların, hökumət, qeyri-hökumət təşkilatlarının və vətəndaş cəmiyyəti təşkilatlarının, o cümlədən fermer/balıqçı təşkilatlarının digər işçiləridir, eləcə də qida dəyəri zəncirinin digər iştirakçılarıdır.

SUSTAINABLE DEVELOPMENT GOALS

## 2030-cu ilin İnkişaf Gündəliyinə töhfə vermək

ərzaq itkisi və tullantılarının azaldılması 2030-cu ilin Gündəliyi çərçivəsində Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) mühüm hədəflərindən biridir. Hədəf 12.3 "2030-cu ilədək, dünyada pərakəndə ticarət və istehlakçı səviyyələrində adambaşına düşən ərzaq tullantılarını yarıya qədər azaltmaq və məhsul yığımından sonrakı itkilər də daxil olmaqla, istehsal və təchizat zəncirləri boyu ərzaq itkilərini azaltmağa" çağırır.

Eyni zamanda, layihənin icrası digər DİM hədəflərinə, o cümlədən ərzaq təhlükəsizliyi və qidalanma, eləcə də sosial və ekoloji dayanıqlılıqla bağlı hədəflərə də nail olmağa kömək edəcəkdir.

# FAO-Türkiyə Tərəfdaşlıq Proqramı haqqında

FAO-Türkiyə Tərəfdaşlıq Proqramının məqsədlərinə ərzaq təhlükəsizliyinin təmin edilməsi, kənd yerlərində yoxsulluğun azaldılması, meşələrin dayanıqlı idarə edilməsi, səhralaşma ilə mübarizə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkiyə, Türkmənistan, Özbəkistan və qarşılıqlı maraq kəsb edən digər ölkələrdə ekosistemlərin qorunması daxildir.

Türkiyə Hökumətinin maliyyələşdirdiyi 2007-ci ildə fəaliyyətə başlayan ərzaq və Kənd Təsərrüfatı üzrə FAO-Türkiyə Tərəfdaşlıq Proqramının (FTPP) birinci mərhələsi Kənd və Meşəçilik Təsərrüfatı Nazirliyinin təqdim etdiyi ümumi 10 milyon ABŞ dolları məbləğində olan maliyyə dəstəyi ilə fəaliyyətə başlayıb.

Proqramın birinci mərhələsini əhatə edən 2009-2015-ci illərdə 16 fərqli ölkədə 28 layihə həyata keçirilib. 2014-cü ildə FAO-Türkiyə Tərəfdaşlıq Proqramının 2-ci mərhələsinə və bununla yanaşı 20 milyon ABŞ dolları məbləğində əlavə fondla FAO-Türkiyə Meşə Tərəfdaşlığı Proqramının (FTFP) birinci mərhələsinə start verilib. Bununla da Türkiyə hökumətinin ümumi töhfəsi 30 milyon ABŞ dollarına çatdırılmışdır.

Yeni mərhələdə aşağıdakı sahələrdə bir sıra layihələr həyata keçiriləcək:

- qida təhlükəsizliyi və qidalanma;
- kənd təsərrüfatı və kənd ərazilərinin inkişafı;
- təbii sərvətlərin qorunması və idarə edilməsi;
- kənd təsərrüfatına dair fəaliyyətlər;
- ərzaq təhlükəsizliyi;
- meşələr, torpaqlar və təbii sərvətlərin dayanıqlı şəkildə idarə edilməsi və torpaq resurslarının deqradasiyasının qarşısının alınması;
- struktur dəyişiklikləri, təlim və milli potensialın artırılması.



**Layihənin Mərkəzi Asiya, Qafqaz və digər ərazilərdə icrası**



**Türkiyənin ümumilikdə 30 milyon ABŞ dolları maliyyə dəstəyi**




**Bugünədək 28 layihənin həyata keçirilməsi**




**Tərəfdaşlıq proqramının yeni mərhələsində 19 layihə icra edilir**

# ƏLAQƏ

**BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO)**

---

**Viorel Gutu**
Mərkəzi Asiya üzrə subregional koordinator və
FAO-nun Türkiyədəki təmsilçisi
sec-src@fao.org

---

**Mələk Çakmak**
FAO-nun Azərbaycandakı təmsilçisi
Bakı, Azərbaycan
FAO-AZ@fao.org

---

**Leyla Akyüz Sönmez**
ərzaq və Kənd Təsərrüfatı sahəsində FAO-Türkiyə
Tərəfdaşlıq Proqramı (FTPP)
leyla.akyuzsonmez@fao.org

---

https://www.fao.org/in-action/fao-turkey-partnership

**Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Ankara, Türkiyə**

REPUBLIC OF TÜRKİYE
MINISTRY OF AGRICULTURE
AND FORESTRY

**Layihə Türkiyə Respublikasının Kənd Təsərrüfatı və Meşəçilik Nazirliyi tərəfindən maliyyələşdirilib.**

BY NC SA

© FAO, 2022
CB1132AZ/03/22